**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 312**

**Bakı şəhəri, 20 iyul 2018-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322, № 12, maddə 1674; 2015, № 4, maddə 471, № 10, maddə 1228) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"na aşağıdakı məzmunda 218-ci və 219-cu hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 218. | Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 62-ci km-də Kür çayı üzərində körpü | Kürdəmir rayonu | "Avtomobil Yolları" məqsədli büdcə fondunun vəsaiti |
| 219. | Respublika Narkoloji Mərkəzi | Bakı şəhəri | dövlət büdcəsi |

**Azərbaycan Respublikasının Baş naziri** **Novruz Məmmədov**

Xalq qəzeti.- 2018.- 21 iyul.- S.6.